# QOCAMAN TƏHSİL OCAĞI MÜASİR TƏLƏBLƏRƏ UYĞUNLAŞMA YOLUNDA



**Zülfüqar Əsgərov,**
*Dəmir Yolu və Metropoliten üzrə*
*Bakı Dövlət Peşə Təhsil Mərkəzinin direktoru*
*e-mail: z_asgarov@mail.ru*

*Ümumdünya iqtisadi-siyasi və ticari-nəqliyyat sektorunun iştirakçısı olmaq üçün hər bir dövlətin faydalı resursları, inkişaf etmiş sənayesi və kənd təsərrüfatı ilə yanaşı, yerləşdiyi coğrafi ərazinin yaratdığı imkanlar da önəmlidir. Bu cəhətdən hələ qədim dövrlərdən günümüzə qədər Azərbaycan qitələrarası quru və dəniz nəqliyyat sisteminin ayrılmaz hissəsi kimi diqqət mərkəzində olmuşdur. Kütləvi daşımaçılıq, nisbətən ekoloji və texniki təhlükəsiz, tez çatdırma xüsusiyyətlərinə görə dəmir yolu ümumi nəqliyyat şəbəkəsində özünəməxsus yer tutur. Dövlət müstəqilliyimizin ilk illərində ciddi böhranla üzləşən nəqliyyat şəbəkəsi yenidən hakimiyyətə gələn Ümummilli lider Heydər Əliyevin bir sıra dövlətlərarası sazişlərə imza atması nəticəsində dirçəlməyə başladı. Daha sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2009-cu il 20 iyul tarixli Sərəncamı ilə Azərbaycan Dövlət Dəmir Yolunun bazasında "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti yaradıldı. Qitələrarası yükdaşımaları uğurla yerinə yetirən Azərbaycan Dəmir Yolları QSC Şimal-Cənub dəhlizi və İpək yolu marşrutları üzərindən keçən yükləri, həmçinin terminallarından təqdim olunan neft və neft məhsullarının təyinatı üzrə çatdırılmasını təmin etməyə başladı.*

Azərbaycanda Dəmir Yollarının tikintisi, çar Rusiyasının infrastrukturunun inkişafı isə daha sonralar – sovetlər ittifaqının hakimiyyəti dövrünə təsadüf etmişdir. İmperialist siyasət bu sahədən də yan keçməmişdir. Belə ki, tikintisi və idarəetməsi üçün tələb olunan maşın-mexanizm, avadanlıq, xüsusi materiallar, elektrik maşınları və irili-xırdalı digər qurğular, əsasən, Rusiya ərazisində yerləşən müəssisələrdə istehsal olunurdu. Lakin hər şeyə rəğmən Azərbaycanın yerləşdiyi coğrafi ərazi və Bakı neftinin Batumi limanına çatdırılması üçün Dərbənd-Bakı-Batumi dəmir yolu xəttinin çəkilməsi mütləq idi. Tikintisinə və idarə olunmasına rəhbərlik aydındır ki, rus və erməni millətindən olan işçilərə həvalə olunurdu. Ümummilli lider Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə cəmiyyətimiz bu tendensiyada inqilabi dəyişikliklərə şahidlik etdi. Həmin dövrdə milliyyətcə azərbaycanlı olan istedadlı gənclər o dövrün nüfuzlu ali nəqliyyat məktəblərinə göndərildilər. Qısa müddət ərzində həmin mühəndislər yerli dəmir yollarının müxtəlif sahələrində infrastrukturu idarə etməyə nail oldular.

70-ci illərdə Bakı-Böyük Kəsik və Bakı-Yalama dəmir yolu xətləri elektrikləşdirildi. Bu da dəmiryolu ilə yükdaşımaların həcmini artırmağa imkan verdi. Ağdam-Xankəndi və Yevlax-Balakən dəmir yolunun çəkilməsi başa çatdırıldı. Bununla Qarabağ və Şimal-Qərb regionunu res-

publikanın digər bölgələri ilə daha sıx şəkildə bağlamaq mümkün oldu. Elektrikləşdirilmə ilə əlaqədar lokomotiv və vaqon parkı yeniləndi, elektrik dartı yarımstansiyaları istifadəyə verildi. Bununla da bölgələrin sosial-iqtisadi inkişafı sürətləndi, minlərlə yeni iş yerləri yaranmış oldu. Bu iş yerlərinin tələbatına uyğun olaraq texniki personal hazırlamaq zərurəti yarandı.

Dəmir Yolu və Metropoliten üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin tarixi 1923-cü ildən başlayır. Belə ki, bu təhsil ocağı həmin ildən fabrik-zavod məktəbi kimi fəaliyyətə başlamışdır. 1941-ci ildən 1 nömrəli Dəmir Yolu Peşə Məktəbi, 1955-ci ildən 4 nömrəli şəhər Texniki-Peşə Məktəbi, 1969-cu ildən 2 nömrəli Orta Texniki-Peşə Məktəbi, 1996-cı ildən Dövlət Dəmir Yolu Liseyi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 11 oktyabr tarixli, 405 nömrəli Qərarına əsasən, 2 nömrəli Bakı Peşə Məktəbi ilə birləşdirilərək onların bazasında Dəmir Yolu və Metropoliten üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi yaradılmışdır. Burada "elektrovoz maşinisti köməkçisi", "teplovoz maşinisti köməkçisi", "elektrik qatarının maşinist köməkçisi", "dəmiryol stansiyası və keçid növbətçisi", "sərnişin vaqonlarının bələdçisi", "bilet (yük) kassiri", "yük və baqaj qəbul-təhvilçisi", "metropoliten elektrik qatarlarının maşinist köməkçisi", "işarəvermə, mərkəzləşdirmə, bloklama qurğularının təmiri və xidməti elektrik montyoru", "yüksəkgərginlikli hava xətlərinin və kontakt şəbəkələrinin quraşdırılması üzrə elektrik montyoru-xətçi" ixtisasları üzrə kadrlar hazırlanmaqla yanaşı, şagirdlərə, həm də orta təhsil verilməyə başlanılıb. Liseyin tanınmış, adlı-sanlı məzunları kifayət qədərdir.

Məlum siyasi-iqtisadi hadisələr səbəbindən dövlət müstəqilliyinin ilk illərində başqa sahələr kimi dəmir yolu nəqliyyatı da digər respublikalardan asılılıq nəticəsində iflasa uğramışdır. Qırılmış iqtisadi əlaqələr, yeni idarəetmə quruluşuna keçid, ölkələrdaxili qeyri-sabit vəziyyət, sərnişin və yükdaşıma tariflərinin kəskin artımı bu geriləmə proseslərini daha da sürətləndirmiş, Azərbaycanın işğala məruz qalmış ərazilərindən keçən dəmir yolu şəbəkəsi erməni vandalizmi tərəfindən tamamilə dağıdılaraq talan edilmişdir. Dəmir yolu nəqliyyatının ölkənin iqtisadiyyatının inkişafında önəmli əhəmiyyətə malik olduğunu nəzərə alsaq, onun dayanıqlı fəaliyyətinin bərpası və saxlanılması da mütləq idi. Bunun üçün ilk növbədə ixtisaslı texniki heyətə ehtiyac vardır. Uğurlu iqtisadi siyasətin davamçısı kimi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2016-cı il 6 dekabr tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ni təsdiq etdi. Burada əksini tapan iqtisadi inkişaf mərhələlərində peşə təhsilinin inkişafı da prioritet kimi öz yerini tutmuşdur. Bu sərəncamın tələblərinə uyğun olaraq, maddi-texniki bazası zəifləmiş peşə təhsili müəssisələri birləşdirilərək onların bazasında peşə təhsil mərkəzləri formalaşdırılmışdır. Məhz bu uğurlu islahatın nəticəsi kimi **Dəmir Yolu və Metropoliten üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi** yaradılmışdır.

Müstəqillik əldə olunana qədər keçmiş sovetlər ittifaqının iqtisadiyyatı süni asılılıq prinsipləri əsasında qurulduğundan, müstəqillik əldə edən ölkəmizin bütün sahələrində məlum siyasi hadisələr səbəbi ilə hazır məhsulun baha qiymətə idxal edilməsi məcburiyyəti yaranmışdır. İqtisadi böhran vəziyyətlərində maşınqayırma, kənd təsərrüfatı, idarəetmə, rabitə və nəqliyyat sahələrinin özünütənzimləmə və xarici asılılığı dəfetmə qabiliyyətini əldə etmək ehtiyacı ixtisaslı texniki personalın hazırlanması işlərini önə çəkdi. Dövlətçilik ənənələrinə söykənən uğurlu iqtisadi islahatlar nəticəsində peşə təhsili müəssisələrinin yenidən qurulması, mərkəzləşdirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi, mühəndis-pedaqoji heyətin yenidən hazırlanması və bu istiqamətdə inkişaf etmiş ölkələrin təcrübəsinə əsaslanaraq layihələrin həyata keçirilməsi uğurla davam etməkdədir. Bu inkişaf prosesləri Dəmir Yolu və Metropoliten üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində də özünəməxsus ahənglə davam etdirilir. Müəssisəmiz fəaliyyətə başladığı dövrdən bugünədək Azərbaycan Dəmir Yollarının və Bakı Metropoliteninin müxtəlif sahələrini peşəkar kadrlarla təmin edir. Əvvəlki dönəmlərdə müxtəlif adlar altında fəaliyyət göstərsə də, bu peşə təhsili müəssisəsi öz missiyasını davam etdirmiş, zamanın çətinliklərinə qatlaşaraq maddi-texniki və kadr bazasını qismən də olsa qoruyub saxlaya bilmişdir.

"Strateji Yol Xəritəsi"ndə dövlət qurumlarının qarşısında qoyulmuş tələblər və layihələr çər-

çivəsində Azərbaycan Dəmir Yolları QSC ilə Mərkəzimiz arasında qarşılıqlı əməkdaşlıq haqqında razılaşma əldə olunmuşdur. Bu razılaşmanın predmetlərinə uyğun olaraq Azərbaycan Dəmir Yolları QSC-nin balansında olan avadanlıq və qurğuların müəyyən bir hissəsi təmənnasız olaraq Mərkəzin istifadəsinə verilmişdir. Belə ki, əsas tədris korpusunda **"Hərəkətin avtomatik idarə olunması"** təlim laboratoriyası



quraşdırılaraq təhsilalanların istifadəsinə verilmişdir. Bu laboratoriyada dəmir yolu stansiyası növbətçisinin iş yeri müvafiq işarəvermə, mərkəzləşdirmə, bloklama qurğuları ilə tam təchiz olunmuşdur. İdarəetmə tablosu, rele-mərkəzləşmə bloku, giriş işıqforu, çıxış işıqforu, yoldəyişən qurğunun çevirici mexanizmi, "kurbel" qurğusu, şərti dəmir yolu xətti, dəmir yolu xətti üzərində hərəkət edən qatar, dəmir yolu keçidi və digər köməkçi vasitələr bu təlim laboratoriyasında yer almışdır. Təlim laboratoriyası stansiya növbətçisinin fəaliyyəti zamanı qatarların hərəkətinin, əmr və sərəncamların, baş verə biləcək nasazlıqların, telefonoqramların qeydiyyatı üçün Azərbaycan Dəmir Yolları QSC-nin qəbul etdiyi sənədlər toplusu ilə təmin olunmuşdur. İdarəetmə tablosundan öz vəzifəsini yerinə yetirən stansiya növbətçisi stansiyanın giriş və çıxış işıqforlarını, həmçinin dəvətedici işarəni açmaqla, dəmir yolu üzərində hərəkət edən şərti qatarı stansiyanın yollarına qəbul edir və yola salır. Tədris laboratoriyasında stansiya növbətçisinin fəaliyyətinə dair sənədlərdə və jurnallarda qəbul olunan və göndərilən qatarların hesabatı və qeydiyyatı aparılır, dispetçerin əmr və sərəncamları sənədləşdirilir. "İşarəvermə, mərkəzləşdirmə, bloklama qurğularının təmiri və xidməti elektrik montyoru" ixtisası üzrə təhsil alan tələbələr də burada quraşdırılmış relelərdə, idarəetmə tablosunda, işıqforlarda və yoldəyişən qurğunun çevirici mexanizmində yarana biləcək nasazlıqları aradan qaldırmaq üsullarını və təmir işlərini əyani olaraq mənimsəyirlər.

**"Elektrovozun yüksəkgərginlikli kamerası"** trenojoru köməkçi korpusda quraşdırılmışdır. Bu trenajorda maşinistin idarəetmə kabinasında, həmçinin yüksəkgərginlikli kamerada yer almış avadanlıq və qurğular – teztəsirli açar (БВП-5-02), köməkçi dövrələrin kontaktoru (КВЦ-2А), reversor çevirgəci (ПКД-043), mühərriklərin çevirgəci (ПКД-047), qrup çevirgəci (ПКГ-040), elektropnevmatik kontaktor (ПК), elektromaqnit kontaktor (МК-310А və МК-310В), diferensial rele (РДЗ-068), diferensial rele (РДЗ-068-01), cərəyanqəbuledici (Т-5М1-(П5), maşinist kranı (şərti №394 və 395), sürətölçən (СЛ-2), hava çəni, təzyiq tənzimləyicisi (РД-012), maşinist nəzarətçisi (КМЭ-013), elektromaqnit kontaktoru (ТКП-14), düyməli açarlar (КУ), əlavə müqavimət, qoruyucular (БВ və КВЦ), idarəetmə dövrələri, projektor, kompessor, lokomotiv işıqforu quraşdırılaraq təhsilalanların istifadəsinə verilmişdir. Bu trenojorda hazırda Azərbaycan Dəmir Yolları QSC-nin lokomotiv təsərrüfatında istismarda olan ВЛ-10 və ВЛ-11 markalı elektrovozlarının idarəetmə pultu və əsas elektrik avadanlıqları yer almışdır. Burada maşinist özünün şərti iş yerində qəbul olunmuş ardıcıllığa uyğun olaraq xüsusi açarlar vasitəsilə hava kompressorunu və daha sonra sıxılmış hava ilə təchiz edilmiş sistemi işə salmaqla, həmçinin maşinist nəzarətçisinin təmas mövqelərini dəyişməklə elektrik aparatlarının qoşulmasını yerinə yetirir.

İstifadəsi qapalı şərait tələb etməyən 15 metr uzunluğunda ***dəmir yolu və bu yol üzərində elektrik təmas şəbəkəsi*** Mərkəzin ərazisində quraşdırılmışdır. Bu kompleksdə 1/6 markalı yoldə-



yişən qurğu, P-50 markalı relslər, rels birləşmələri və ağac şpallar şəbəkə formasında quraşdırılmış, çınqıl örtüyü ilə tamamlanmışdır. Dəmir yolu xətti üzərində isə təmas şəbəkəsinin elementləri şərti olaraq quraşdırılaraq "yüksəkgərginlikli hava xətlərinin və kontakt şəbəkələrinin quraşdırılması üzrə elektrik montyoru-xətçi", "işarəvermə, mərkəzləşdirmə, bloklama qurğularının təmiri və xidməti, elektrik montyoru" və "dəmir yolunun və süni qurğuların saxlanılması üzrə briqadir" ixtisasları üzrə həm nəzəri-praktiki dərsləri, həm də istehsalat təlimi və təcrübəsi məşğələlərini tədris etmək imkanı yaradılmışdır. Mərkəzimizdə "dəmiryol stansiyası və keçid növbətçisi" ixtisasını bitirən məzunlar III və IV sinif azfəaliyyətli stansiyalarda stansiya növbətçisi vəzifəsinə, sinifsiz, I və II stansiyalarda isə işarəçi, idarəetmə postunun növbətçisi, işarəvermə postunun növbətçisi, texnoloji mərkəzin operatoru, yoldəyişdirici postun növbətçisi və digər vəzifələrə işə qəbul olunurlar.

Bütün ixtisaslar üzrə tələbələrin istehsalat təcrübələrinin Azərbaycan Dəmir Yolları QSC-nin və Bakı Metropoliteni QSC-nin uyğun müəssisə və sahələrində təşkil olunması məzunların işlə təmin olunmasına şərait yaratmışdır. Belə ki, təcrübə zamanı müəssisələrdəki iş proseslərini bilavasitə yaxından müşahidə etmək, hətta təlimata uyğun olaraq müəyyən formada təmir işlərində iştirak etmək, mütəxəssislərlə müzakirələrdə öz suallarına cavab tapmaq, daxili intizam qaydalarına uyğunlaşmaq, həmçinin lokomotivlərin və vaqonların, işarəvermə və idarəetmə qurğularının istismarı işlərində iştirak etmək imkanları yaradılır. Bu imkanlar sayəsində tələbələr istehsalat proseslərini mənimsəmək, uyğun iş yerini seçmək, gələcəkdə müəssisə kollektivi ilə işləmək və rəhbərlik qarşısında öz bacarığını nümayiş etdirmək şansı əldə etmiş olurlar. Bu işlərin təşkil edilməsi üçün əvvəlcədən əldə olunmuş qarşılıqlı razılaşmaların şərtlərinə əsasən, rəsmi qaydada yerinə yetirilir. Bu zaman bütün normativ-hüquqi qaydaların tələblərinə ciddi riayət olunur.



Müstəqilliyinin ilk illərində respublikamızda peşə məktəblərinin zəifləməsi fonunda Azərbaycan Dəmir Yolları və Bakı Metropoliteni özünün fəhlə-kadr bazasını peşə təhsili almayan işçilərlə təmin etmək məcburiyyətində qaldılar. Hazırda həmin işçilər təcrübi olaraq öz vəzifələrini layiqincə yerinə yetirsələr də, təhsil sənədlərinin olmaması səbəbindən ixtisaslı kadr bazasına daxil ola bilmirlər. Bu da peşəkar işçilərdən daha səmərəli yararlanmağa imkan vermir. Həmin əməkdaşların texniki-peşə təhsili almaları məqsədi ilə 2022-ci ilin birinci rübündə Mərkəzimiz Azərbaycan Dəmir Yolları QSC-nin və Bakı Metropoliteni QSC-nin rəhbərliyi qarşısında təkliflə çıxış etmişdir. Təklifdə hazırda həmin sahələrdə çalışan, lakin gündüz növbəsində təhsil almaq imkanı olmayan şəxslərin axşam şöbəsində təhsil almalarını nəzərdən keçirmələri qeyd olunurdu. Təklifin yetərincə əsaslandırılmasından sonra Azərbaycan Dəmir Yolları QSC-nin rəhbərliyinin Dəmir Yolu və Metropoliten üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində axşam şöbəsinin təşkil olunması üçün ehtiyac yarandığını rəsmi olaraq bildirməsi Peşə Təhsili üzrə Dövlət Agentliyinin rəhbərliyi tərəfindən müsbət cavablandırıldı. Bununla da, dəmiryolu və metropoliten işçilərinin 2022-2023-cü tədris ili üçün axşam şöbəsində altı ixtisas üzrə texniki-peşə təhsili almaq imkanı yaranmışdır. Düşünürük ki, axşam şöbəsində təhsil alacaq həmin işçilər öz müəssisələrində karyera quraraq kadr bazasını təmin edəcəklər ki, bu da ölkəmizdə nəqliyyat sektorunun dayanıqlığının təmin olunmasına öz töhfəsini verəcəkdir.